# KİŞİ ADAM

**Fikrət ŞİRİYEV**
*BDU Həmkarlar İttifaqı Komitəsinin sədri*

Xəlil müəllim incə qəlbli adamdır- mənim bu fikrimi onu yaxından tanıyanların hamısı təsdiq edə bilər: həssaslıq, incəsənətə, poeziyaya dərin bələdlik və maraq, bütün insanları ən incə cəhətlərinə qədər dərindən tanımaq və qiymətləndirmək, hamıya diqqət göstərmək üçün məhz belə bir ürəyə sahib olmaq lazımdır. Onunla söhbət edəndə, ünsiyyətdə olanda bu boylu-buxunlu, cüssəli adamın bu qədər zərif hisslərə malik olmasına inanmırsan.

Xəlil müəllim çox qətiyyətli adamdır. Ən çətin məqamlarda düzgün qərar qəbul etməyi bacaran, böyük təşkilatçılıq xüsusiyyətlərinə malik, insanlarla asan ünsiyyət quran, necə deyərlər "böyüklə-böyük, kiçiklə kiçik" ola bilən bir şəxsiyyətdir. Bizim universitetin ən çətin işlərini boynuna çəkən, onları məharətlə bacaran təşkilatçıdır. Yadımdadır ki, Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası BDU-nun korpuslarında qəbul imtahanları keçirəndə bizdən, necə deyərlər, "əməlisaleh", həm də ötkəm, sözünü deməyi, lazım gələrsə valideynləri yola gətirməyi bacaran, zahirən də, daxilən də ziyalı olan bir nəfər istədilər ki, bu imtahanlara məsul olsun. Çox çəkməyən müzakirələrdən sonra Universitetin rəhbərliyi 3000 nəfərin arasından Xəlil müəllimin üzərində dayandı.

Xəlil müəllim halal adamdır. 20 il dekanlıq etdiyi Kitabxanaçılıq-informasiya fakültəsində nə bir tikə haram yeyib, nə də kimsəyə icazə verib haramxorluq eləsin. Yaxşı xatirimdədir, bir dəfə metrodan düşüb birgə Universitetə gəlirdik, yolda başqa fakültədən bir nəfər qarşımıza çıxdı. O yan-bu yandan danışandan sonra birdən qayıtdı ki, bəs ay Xəlil müəllim, dünən Sizin fakültədə bir nəfər mənim qohumuma qiymət yazmaq üçün filan qədər pul istədi. Xəlil müəllimi elə bil ilan çaldı. Dik atıldı, rəngi dəyişdi, hiss etdim ki, bərk əsəbləşdi, həmin adamı yaxasından tutub düz fakültəyə qədər gətirdi, o müəllimi çağırtdırdı, məsələni axıradək aydınlaşdırdı, məlum oldu ki, həmin əməkdaş da öz işini aşırmaq üçün şantaj edirmiş, Xəlil müəllim isə xeyli dərman-zad içəndən və ancaq arxayın olandan sonra sakitləşdi ki, bu fakültədə belə şey yoxdur,ola da bilməz.

Xəlil müəllim cəsarətli adamdır.Yaşlı nəslin nümayəndələri danışır ki, indiki bəzi "üzdəniraqlardan" fərqli olaraq, o vaxtın müəllimləri heç nəyə baxmadan sözlərini deməyi bacarıblar.Məsələn, professor Mübariz Əlizadə partiya iclasında sədrlik edən Bakı Şəhər Partiya Komitəsinin Birinci Katibini (o zaman bu, çox böyük vəzifə idi) tribunadan düşürtdürüb, akademik Məcid Rəsulov 1991-ci ildə o vaxtkı ölkə başçısını rektor təqdimetmə mərasimində



suçlayıb və qətiyyətlə iradını bildirib, professor Əlövsət Abdullayev qardaşı ölkə başçısı olan rektor Faiq Bağırzadənin ağır sözlərinə akt zalında- camaatın qabağında sərt və açıq fikirlərini bildirib. "İndi belə adamlar yoxdur", deyənlərə Xəlil müəllimi misal göstərirəm. Heç kəsin söz deməyə cəsarət etmədiyi adamlara o, kəskin və yerində cavab verməyi bacarır. Cəsarəti ilə o, köhnə kişilərdəndir.

Xəlil müəllim xeyirxah adamdır. Tələbələrin ən imkansızından müəllimlərin çarəsizinə kimi "Xəlil müəllim" deyib qapısını döyən hər kəs bu xeyirxahlığın şahidi olub. Mən şahidəm ki, qolundan tutub həyat yoluna çıxarana kimi nə qədər insana təmənnasız yaxşılığı dəyib. Deyirlər, guya yaxşılıq ən tez unudulan əməldir. Məncə, bu fikri yaxşılığı bacarmayanlar düşünüb tapıblar. Yaxşılığı, Xəlil müəllim kimi, unudulmamağa görə yox, daxili tələbata görə edənlər üçün onun yaddaşlarda yaşaması, əvəzinin nə zamansa ödənilməsi kimi umacaqlar boş bir xülyadır.

Xəlil müəllim prinsipial adamdır. Sağlam əqidə yolunda hər şeyindən keçməyə hazır olmaq dərəcəsində prinsipial. Əgər gedilən yolu düz hesab etmirsə, doğma qardaşı, yaxud böyük bir ixtiyar sahibi onu bu yolla getməyə təhrik edə bilməz. Əyilməzlik, qürur bu ali keyfiyyətin bəzəyidir. Rəhmətlik Cabir Novruzun bir şeiri var, övladlarına xitabən deyir ki,"Vaxt olub ki, dediyimdən dönməmişəm, sizin üçün, Vəzifəli bir alçağın qarşısında dinməmişəm, sizin üçün." Ancaq Xəlil müəllim "vəzifəli alçağın" qarşısında doğma övladına görə, hansısa imtiyaza görə, mənsəbə görə də susmayıb, sözünü deyib!

Xəlil müəllim ünsiyyətli adamdır. Beynəlxalq termin olan "kommunikabelnı" bu adama daha uyğun gəlir. İstəyirsən Gədəbəyə get, İsveçə, yaxud Novxanıya, əgər Xəlil müəllim yanındadırsa, özünü qərib hiss etməyəcəksən, maraqlı söhbətləri, hamıyla şirinliyi, kənar adamlarla asan ünsiyyəti səni darıxmağa qoymayacaq. Yerli-yerində olan duzlu zarafatlar, hadisələrə çevik reaksiya, düzgün qərarlar dərin ağlın göstəricisi kimi hamını heyran edir. Dostluqda misli olmayan Xəlil müəllimin yol yoldaşlığı bir ayrı aləmdir.

Bütün deyilənləri ümumiləşdirib demək istəyirəm ki, Xəlil müəllim kişi adamdır. Bizim xalqın ən gözəl söz birləşməsi olan "kişi adam" sözləri bir yerdə Xəlil müəllimə çox yaraşır. Allah ona boy-buxun, dərin təfəkkür, xoşbəxt tale, gözəl ailə, sağlam düşüncə verib, bir də onu Düzrəsullu kəndində dünyaya gətirib, adını Xəlil, soyadını İsmayılov qismət eləyib. Rəsul da peyğəmbər adıdır, İsmayıl da. Düzlük də bu kişinin qanında, canındadır. Xəlil isə ərəbcədən çevirəndə yaxın yoldaş, sevimli dost deməkdir. Bunların hamısını həyatda doğrultmağı xudavəndi –aləm bəndəsinə həvalə eləyib. Xəlil müəllim də kişi kimi bütün etimadları doğrultduğu kimi, uca tanrının da etimadlarını doğrulda bilib. Ömrün bu kamillik çağında-70 yaşın tamamında arxaya boylanıb görürük ki, Xəlil müəllim bu gözəl ömrü kişi kimi yaşayıb, ona görə haqqında yazdıqca yazmaq istəyirəm, söz bitmək istəmir, ancaq ürək dolu olsa da, bunu necəsə yekunlaşdırmaq lazımdır, həqiqəti ilə razılaşaraq sözümü həmin söz birləşməsi ilə bitirirəm, çünki,bu birləşmə hər şeyi ehtiva edir: "kişi adam".